# Nizami MİRZƏ -70

## Əsərləri kimi zərif, sadə...



*Baba BABAYEV,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru*

Nizami Mirzənin nəsr yaradıcılığı ilə çoxdan tanışam. Maraqlı hekayələr, birbaşa hədəfi vuran povestləri, prototip seçdiyi müasirlərinin çatışmayan cəhətlərini, ən əsası da tanıdığı tipləri bədiiləşdirərək yumorlu dillə təqdimi vaxtı situasiyadan asılı olaraq gülünc vəziyyətinə qoyur, ya da oxucunu düşündürərək güldürür. Onun nəsrinin mətnlərini oxuyarkən yarımçıq kənara qoymaq insafsızlıq olardı. Birincisi, Nizami Mirzənin hekayə və povestləri həcm etibarı ilə lakonikdir, ikincisi, mətnlərdə cərəyan edən hadisələr inandırıcıdır.

Bütün həqiqi sənətkarlar kimi Nizami Mirzə də ilk növbədə hansı növdə və janrda yazmaq yox, necə yazmaq maraqlandırmışdır. Buna görə də N.Mirzədən ümumi yaradıcılıq axtarışlarında özünəməxsus yeri olan nasir kimi danışmaq vacibdir. Əsərlərinə əsasən onun yalnız bir nasir olaraq deyil, həmçinin bir insan və xarakter olaraq tədrici surətdə inkişafını izləmək mümkündür. Nəsrinin ən böyük əhəmiyyəti oxucuda yüksək bir qayə və ideal doğurmasıdır. Ədəbiyyatın bu əhəmiyyətini istedadının imkan verdiyi epik növdə və epik növün povest və hekayə janrında həyata keçirməyə uğurla nail ola bilibdir. N.Mirzənin epik yaradıcılığının nümunəsində Azərbaycan nəsrinin XX əsrin 70-ci illərindən tutmuş bu günlərə qədər keçdiyi inkişaf yolunu izləmək olar. Yalnız ona görə yox ki, o, bu illərdə uzun və səmərəli yaradıcılıq yolu keçmişdir. Daha çox ona görə ki. yazıçının hər bir nəsr əsəri janrından və həcmindən asılı olmayaraq, bədii yaradıcılıq axtarışlarının səciyyəvi meyllərini, istiqamətlərini bu və ya digər dərəcədə özündə əks etdirir. Tanınmış yazıçı Əfqan yazır: "...o vaxt "Kommunist" qəzetində ədəbiyyat şöbəsinə mən başçılıq edirdim. Nizami Mirzəyevin qəzetə bükülü hekayəsini göründə zarafatla dedim ki, həcmcə düz gəlir, görək məzmunu nə buyurur."Evimizə gəlin gəlir" hekayəsi də oxundu və çap üçün bəyənildi. Çox da böyük olmayan məzəli hekayə idi. Toy vaxtı "el adəti" adı altında edilən bəzi eybəcərliklər hekayədə şirin və oynaq dillə tənqid edilirdi. Ancaq bu zərif tənqidin özü də "el adətlərinin" əsiri olanlara qəzəbdən çox müəllifin məhəbbətini göstərirdi". Hekayənin belə yüksək qiymətləndirilməsi təsadüfi deyildi və bunun əsas səbəbini də əsərin məzmununda axtarmaq lazımdır. N.Mirzə hekayədə heç bir artıq söz və cümlə işlətməmişdir.

İstər sevgi dolu yazıları, istərsə də Dağlıq Qarabağ müharibəsi ilə bağlı aktual olan bədii nümunələr gənclərimiz üçün ibrət götürüləsi mətnlərdir. İrilixırdalı hər bir bədii əsərində yüksələn xətlə inkişaf görünməklə yanaşı, bir yazıçı kimi o, vətəndaş mövqeyini də nümayiş etdirir. Özü də sətiraltı yox, aşikaranə, gerçəkliklə.

Həyatımın ən qaynar çağlarını, uzun illərini orta və ali məktəblərdə dərs deməyə, (müəllim, dekan, kafedra müdiri, tədris işləri üzrə prorektor, təhsil şöbəsinin müdiri və s.) vəzifədə işləməyə həsr etdiyimə görə elmi məqalələrimi "sortlaşdırarkən" tədrislə bağlı, yaxud pedoqoji ictimaiyyətə, əsasən də tədrislə məşğul olanlara elmi-metodiki kömək edəcəyini nəzərə alıb bəzilərini "Təhsil" jurnalına təqdim edərkən redaktor Nizami Mirzənin nə qədər humanist, təvazökar, təmannasız bir insan olduğunu şəxsən müşahidə etmişəm. Liftin qarşısına qədər məni yola salması da onun qəlb genişliyi ilə yanaşı, yazıçılıq ləyaqətindən, tərbiyəsindən, ziyalılığından irəli gəlirdi.

"Qatil" kitabını da avtoqrafla, sanki qızara-qızara təqdim edəndə bu yaşda onun nə qədər mənəviyyatlı bir insan, qəzet işçisi və istedadlı yazıçı olduğunu duymuşdum. Portret cizgilərini qismən də olsa möhtərəm oxucularımıza çatdırmaq istədiyim qələm dostumuz artıq yeddinci onilliyi yazın gül açan, ətir qoxan, təbiətin oyandığı bir vaxtda, bu günlərdə arxada qoydu. Yazıçı-publisist, nasir Nizami Əlipaşa oğlu Mirzəyev 1949-cu ilin martında İsmayıllı rayonunun Xanagah kəndində anadan olmuşdur. İbtidai təhsilini kəndlərində, orta təhsilini isə İsmayıllı şəhər 1 saylı orta məktəbdə başa vurmuşdur.

1972-ci ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun tarix fakültəsinin əyani şöbəsini bitirib. Saatlı və İsmayıllı rayonlarında müəllim işləyib, sonra Bakı şəhərinə köçərək tələbə və fəhlə yataqxanalarında tərbiyəçi müəllim kimi əmək fəaliyyətini davam etdiribdir.

Nizami Mirzə harada işləməsindən asılı olmayaraq ötən əsrin 70-ci illərindən dövrü mətbuatda maraqlı bədii əsərləri, publisist yazıları, dövrün nəbzini tutan aktual məqalələrlə çıxış edərək özünə oxucu auditoriyası qazanmışdır. 2003-cü ildə "Azərbaycan müəllimi" qəzetində işə dəvət olunur, müxbir, xüsusi muxbir (2007) vəzifələrində çalışıbdır. İdarəçilik qabiliyyəti, yaradıcılıq istedadı, səmimiyyəti, intellektual səviyyəsi ilə kollektivin və nazirliyin hörmətini qazanan Nizami Mirzə 2010-cu ildə Təhsil Nazirliyinin "Təhsil" jurnalına baş redaktor müavini, 2013-cü ilin yanvarında sözü gedən jurnala baş redaktor təyin edilmişdir.

"Təhsil" jurnalının ayrı-ayrı saylarını nəzərdən keçirərkən hər sayında elm adamlarının məqalələrinə yer verilməsi də düşüncəmdə onun şəxsiyyətinə olan hörmətimi daha da artırdı. Naşir və yazıçı kimi Nizami Mirzənin əhatə dairəsində elmə sayğıları görmək, elmə arxalanmaq ideyasını jurnalın elmi mündəricəsini artırmaqla bu yönü ancaq alqışlamaq olar. Çünki son illər Təhsil Nazirliyi ilə Milli Elmlər Akademiyası arasında yaranmış birgə əlaqələr, inteqrasiya bütün cəmiyyət tərəfində müsbət qarşılanıbdır.

Nizami ilk bədii əsərini qaynar gənclik illərində -1974-cü ildə "O qış axşamı" hekayəsini - "Kimyaçı" qəzetində dərc etdirmiş, əsərin ayağı "sayalı" olmuşdur. 1975-ci ildə yazdığı "Səninləyəm hər an" mənsur şeiri Nizaminin ədəbi yaradıcılığının potensialından və gələcək ədəbi üfüqlərinin uğurlu olacağından xəbər verirdi. "Gündə yüz yol adını çağırır, dərdimi səninlə yarı bölürəm. Oğullu, qızlı oluruq. Qocalırıq. Səndən qabaq ölürəm. Sənin ölümünü görməmək üçün. Tab gətirə bilməzdim sənin yoxluğuna. Bəlkə sənsiz səninlə yaşayıram".

Nizami Mirzə haqqında görkəmli yazıçılarımız Əfqan, Əlibala Hacızadə, ümumən müxtəlif elmi-ədəbi nəsillərin nümayəndələri yaradıcılığının müəyyən istiqamətlərini təhlil müstəvisinə gətiriblər. Lakin indiki halda bizim məqsədimiz bütövlükdə onları araşdırmaq deyil. Bizim düşüncələrimizdən, həmin dəyərləndirmələrdən gətirilən sitatlar yazıçının ədəbi mühitdəki yerini təsəvvür etmək üçün açar rolu oynaya biləcək mülahizələr kimi təqdim edirik. Əsas məqsədimiz yazıçı-publisistin yaradıcılıq fəaliyyətinin bəzi fraqmentləri, inkişaf yolu haqqında yubileyi ərəfəsində çağdaşlarının əxz edəcəyi təsəvvürü formalaşdırmaq, onun bədii portret cizgilərini yaratmaqdır.

Nizami Mirzənin yumoristik hekayələrində cəmiyyətin müxtəlif nümayəndələrinin məişəti, həyat tərzi, dərd və əməlləri, psixoloji, sosial xüsusiyyətləri, həyatda tutduqları mövqe sarkazma yol vermədən mətndə bədii inikasını tapmışdır.("Evimizə gəlin gəlir", "İş axtarıram, ay dədə", "Soldiş olmağın böyük bəlası", "Müasir ola bilmirəm, ay dədə" və s.) "Soldiş olmağın böyük bəlası" yumoristik novellası "Evimizə gəlin gəlir" hekayəsinin mabədidir, desək səhv etmiş olmarıq. "Yumoristik novella müəllifin milli psixologiyanı dərindən bilməsini sübut edir. Bu isə yazıçıya lazım olan başlıca amillərdən biridir"(Əfqan). Zəngin mənəvi dünyası olan hər bir insan, V.Q.Belinski demişkən, romantikdir. Onun bu hisslərini üzə çıxarsaq, poetik tərənnümün və təhlilin mərkəzinə çəksək psixoloji romantik əsər qəhrəmanı kimi tanınar. Adət-ənənəyə əməl olunması əksər hallarda surətlərin xoş əlvalruhiyyəsinin ifadəsinə çevrilir. N.Mirzə hekayələrində (elə povestlərində də) yaxşı mənada "xəsisdir", sözə qənaətcildir. Dahi rus şairi A.S.Puşkin yazırdı ki, "dəqiqlik və yığcamlıq - nəsrin əsl ləyaqəti bunlardır". N.Mirzənin hekayələri də "dəqiqlik və yığcamlıq"la səciyyələnir. Müəllif həmişə az sözlə tutumlu, mənalı fikir ifadə etməyə çalışır.

Görkəmli yazıçı Əlibaba Hacızadə vaxtı ilə yazırdı:"...sən öz əsərlərin kimi zərif , sadə, mənalı bir insan, qabiliyyətini, mehribanlığını, xeyirxahlığını görməmək, qiymətləndirməmək mümkün deyil... Öz gücünə, istedadına inan, zəhmətinə arxalan və yaz , yarat". Sözün düzü, Nizminin nəsr yaradıcılığı ilə tanış olarkən mərhum Əlibala Hacızadənin yazı üslubunu, psixoloji məqamları əks etdirmə metodologiyasını, zərifliyini, axıcılığını duymamaq olmur. Bəlkə də, yaradıcılıq oxşarlığı onların şəxsi dostluğuna səbəb olmuşdur. Bəlkə xarakterlərindəki tipik oxşarlıq da yox deyildir. Yazıçının nəsr yaradıcılığında "Sarıca" xüsusi yer tutur. Qarabağ faciəsinin əsl mahiyyətini dərk etmək , xəyanətkar ermənilərin faşistliyini-qəddarlığını, azərbaycanlıların torpaq, vətən sevgisini, hətta Sarıca adlı itin sədaqətini kim görmək , bilmək istəyirsə "Sarıca" povestini oxumağı məsləhət bilərdik. 2006-cı ildə qələmə aldığı "Qatil" hekayəsində tipik Azərbaycan kişilərinə xas olan mərdlik, dözümlülük, qeyrətin ən pik həddini, ağlagəlməz situasiyalar İnsan olan kəsi hiddətləndirməyə bilmir. Sərdar kişi qaça-qaç düşəndə yeganə qızı Laləzarı qardaşı qədər ona əziz olan Rüstəm kişiyə etibar edir.

Sərdar kişi Rüstəmi həyətində soyuq qarşılayanda oğlu Tapdığın atasına məlumat verməməsini düşünürdü: "Sənin də qızını vurmuşam, Sərdar! Düzü, əvvəl tərəddüd elədim, lakin öz balamdan ayırmadığım, fərq qoymadığım üçün onu da vurdum. ...Qaçaqaç düşəndə... Birdən kimsə qışqırıb yuxarı baxanda, gözlərimə duman çökdü, qəzəbimdən nə edəcəyimi bilmədim. Üç tərəfdən erməni dığaları ilə əhatə olunmuş Laləzarla Gülbəniz qayanın qırağına doğru can atırdılar. Onlar uçuruma yaxınlaşıb dayandılar. Deyəsən özlərini qayadan atmağa tərəddüd edirdilər. Axı can şirin şeydi, Sərdar. ...Tətiyi çəkib əvvəcə Gülbənizi vurdu. Sonra yıxılan Gülbənizi qucaqlayan Laləzarı nişan aldı. Güllə açılan kimi hər ikisi qayadan üzü aşağı, bizə tərəf yuvarlandılar". Bu faciəni danışan Rüstəm kişi Sərdarın məskun olduğu həyətdən çıxıb qonşu kənddəki müvəqqəti evinə qayıdır. Sərdar səhəri gün qızların üçündə iştirak etmək üçün Rüstəmin evinə getdi. Həyətdə Rüstəmin meyiti üstündə ağlayan qadınları görəndə oğlu, Sərdar əmi, atam dözmədi bu dərdə, - deyir. Bu cür hadisə nadir olsa belə, həqiqətdir. Bunun mümkünlüyü insan ruhunun qanunlarındandır və buna görə nadir olduğundan insana qəribə görünə bilər, amma qeyri-təbii sayıla bilməz. (Mentalitet də əsas faktor kimi nəzərə alınmalıdır) Ən adi bir qız , qadın kişiyə öz müdafiəçisi və himayəçisi kimi baxır; bəs atanın qızını və əmanət olan dostunun qızı Laləzarı şüurlu şəkildə və ya qeyri-şüuri olaraq öldürmək hansı meyarla ölçülməlidir? Namussuzluğu qəbul edə bilməmək xofu, təbii ki, görünən tərəfdir-müsəlmançılıq. Düşmənlərin qızları tutacağını uzaqdan görən qoca və artıq qüvvətsiz həyəcanını saxlaya, özünü idarədən çıxıb (qızların namusuna erməni dığalarının qarı düşmən kimi vəhşicəsinə, düşmənçiliklə təcavüz edəcəyini ani olaraq, ildırım sürəti ilə beynindən keçirib...) tüfəngin tətiyini çəkdi və hər iki gənci qanına qəltan etdi. Burada erməni-Azərbaycan döyüşünün mənzərəsi təmkinlə, geniş və cəsarətli bir fırça ilə çəkilmişdir; onda həyat və hərəkət vardır, sanki rəssam "Döyüş" natura rəsmini çəkibdir.

Bizcə, orta ümumtəhsil məktəblərində Dağlıq Qarabağ müharibəsinə həsr edilmiş, realist, oxucunu düşündürən, dəhşətə gətirən, düşmənə güclü nifrət hissi oyadan nəsrimizin ən layiqli bədii mətnlərini seçib tədris proqramına daxil etsək, o hekayələrin içindən biri Nizami Mirzəyevin "Qatil" hekayəsi olardı. Bu işi görmək isə təbii ki, dərslikləri tərtib edən metodistlərin vətəndaşlıq vəzifəsi, mənəvi borcudur. Nizami Mirzənin ilk kitabı "Mavi gözlər" adı ilə nəşr edilibdir. Kitaba istedadlı nasirimiz Əfqan ön söz yazmışdır: Nizaminin "Açılan gözlər", "Yanıq Kərəmi", "Yaşıl pöhrə", "Müasir ola bilmirəm, ay dədə" və başqa hekayələri oxucunu fikrə dalmağa - düşünməyə vadar edən əsərlərdir...

*(Davamı 16-cı səhifədə)*

# KRED

№44 (969) 30 oktyabr 2019-cu il

*(Əvvəli 11-ci səhifədə)*

"Mavi gözlər" povesti yenə xalq ruhunda, sadə, duzlu, şirin dildə yazılmışdır. ...Nizami məndən xeyir-dua istədikdə böyük Sədinin bir kəlamı yada düşdü:

Müşk odur ki, ətir versin.
Nəinki əttar desin...

Mən əttarlıq eləmək istəmirəm, amma inanıram ki, Nizaminin bu təzə kitabını əlinə alan hər bir oxucu oradakı əsərlərin ətrini hiss edəcəkdir".

## Əsərləri kimi zərif, sadə...

2006-cı ildə "Araz" nəşriyyatı tərəfindən dərc edilmiş "Sarıca" povesti nəşriyyatın münsiflər heyətinin qərarı ilə "İlin ən yaxşı əsəri", "Qatil" kitabı isə "İlin ən yaxşı kitabı" adına layiq görülmüş, müəllifə "Məmməd Araz" Ali Ədəbi Media mükafatı təqdim edilmişdir.

İctimai-siyasi məsələlərə cavab axtaranda labirintə düşdüyünü görüb çıxış yolu tapa bilməyəndə N.Mirzənin "Yaşıl pöhrə", "Qönçə qızılgül", "Yanıq Kərəmi" hekayələrini; gənclik eşqi ilə bir könüldən min könülə bir-birinə vurulan cütlüyün bəxtəvər gələcəyinə tuşlanmış tükürpədici mərmilərdən, var-dövlət hərisliyindən tək bir qızı Gülgəzi bədbəxt edən Zərəfşan arvadın qəddarlığından, odlu-alovlu, qan töküb evləri viran qoyan müharibələrin bəşərin əşrəfi olan insanları necə şikəst və bədbəxt etməsinin acı nəticələrini Hətəm kişinin əzablı, keşməkeşli ömür yollarından, onun heç vaxt üzünü görmədiyi doğma ciyərparası Tatyana ilə təsadüfən qovuşmasından xəbərdar olmaq, nigarançılıq keçirmək istəyirsinizsə, "Mavi gözlər" povestini oxumağı məsləhət bilərdik.

Yazıçının hekayələrindəki yığcamlıq və dəqiqlik təbii ki, ilk növbədə dilin hesabına başa gəlmişdir. N.Mirzənin əsərlərinin o cümlədən, hekayələrinin dili canlıdır, bədiidir, ritmikdir, emosionaldır, sadədir. Yubiley münasibəti ilə yazılmış bir portret məqalədə təbii ki, məqalə həcmində danışmaq olar. N.Mirzə az yazan, yüz ölçüb bir biçən, kağıza da qənaət edən bir sənətkardır. Yaradıcılığının kamilləşdiyi bir vaxtda ona uzun ömür, möhkəm can sağlığı, diabetlə mübarizədə uğurlar diləyir, səkkizinci onilliyin tamamında mövzuya qayıtmaqla, xoşbəxt aylar və illər arzusu ilə...

***2019***